# İgid Əli Hüseynovlar

*Söhbət eyni ad və soyadlı 4 Qarabağ savaşçısından gedir*

**Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuş Vətən oğullarından 4-ü Əli Hüseynov ad-soyadını daşıyır: 32 il əvvəl Birinci Qarabağ müharibəsində itkin düşmüş, Xocavəndin Edilli kəndindəki kütləvi məzarlıqda nəşinin qalıqları tapılmış Əli Heydər oğlu; həmin müharibədə canı və qanı ilə iştirak etmiş və 1995-ci ildə dünyasını dəyişmiş gəncəli Əli Rəşid oğlu; laçınlı polis baş leytenantı, şəhid Əli Hüseyn oğlu və İkinci Qarabağ savaşında vuruşmuş XTQ-nin kiçik giziri Vətən Müharibəsi Qəhrəmanı, hazırda sıralarımızda olan Əli Rəşid oğlu.**



Əli Heydər oğlu Hüseynov 1968-ci il avqust ayında Füzuli rayonu Yuxarı Yağlıvənd kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edib. 1993-cü ilin avqustunda Füzulidə gedən döyüşlər zamanı itkin düşüb. Ötən illər ərzində ailəsi ondan heç bir xəbər ala bilməyib. Əlinin nəşinin qalıqları 3 il əvvəl Edilli ərazisində daha 11 şəxsin basdırıldığı 3-cü kütləvi məzarlıqda aşkar edilib.

Onlar erməni vəhşiliyinə məruz qalıb, məftil və kəndirlərdən istifadə edilməklə əl-ayağı bağlanıb və işgəncə ilə öldürülüblər. Kəllə sümüklərində küt alət izləri, həmçinin güllə və iti alətin deşdiyi izlər müşahidə olunub. Bu faktlar onu göstərir ki, erməni qəsbkarları əsir götürdüyü azərbaycanlıları xüsusi zorakılıqla qətlə yetirib və kütləvi basdıraraq cinayət izlərini ört-basdır etməyə çalışıblar.

Əli Heydər oğlu hələ Sovet ordusunda müddətli hərbi xidmətdə olarkən silahla lazımınca davranmağı, hədəfi dəqiq vurmağı mükəmməl öyrənmişdi. 3 il sonra sıravi əsgər qismində Qarabağın azadlığı uğrunda döyüşlərə qatılan Əli 1991-1993-cü illərdə Azərbaycan Silahlı Qüvvələri Quru Qoşunlarının tərkibində xidmət edib və sərrast atıcı kimi tanınıb. Əvvəlcə doğma kəndinin müdafiəsində, sonra isə Xocavənd və Füzuli döyüşlərində fərqlənib. Ad gününə bir həftə qalmış – 1993-cü il avqustun 6-da Füzuli rayonunun Govşaltı kəndində əsir düşüb və öldürülüb. Doğma kəndində illər sonra Əlinin dəfni zamanı "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib. Onun nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı qardaşına təqdim olunub...

Əli Hüseyn oğlu Hüseynov Qarabağda erməni separatçılığının ilk "cücərtiləri" baş qaldırandan xain qonşulara qarşı mübarizənin önündə gedib. Bir müddət öz kəndlərində, sonralar isə Ağdam rayonunun polis şöbəsində silahdaşları ilə birlikdə Vətənə layiqincə xidmət göstərib. Əli sərrast atıcı və kəşfiyyatçı olub, bir gülləsi belə boşa çıxmazdı. Qorxmaz, igid olduğuna görə Qarakənd camaatı ona "Koroğlu" adını vermişdi. 1992-ci il iyul ayının 19-da Fərrux kəndi uğrunda gedən döyüşlərdə Əli Hüseynov qəhrəmanlıq göstərib, o, milli bayrağımızı Fərrux dağının başına sancıb geri qayıdarkən minaya düşərək həlak olub. Beləliklə, Əli Hüseyn oğlu Hüseynov əbədiyyətə qovuşaraq Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilib.

İkinci Qarabağ müharibəsində igidlik göstərmiş Əli Rəşid oğlu Hüseynov isə çox güman ki, taleyinə 30 illik itkinlik yazılmış əsgər adaşı və igid polis zabiti barədə məlumatsız olub. Amma digər şəhid adaşı haqqında bilgisi ola bilərdi. Çünki atalarının da adı eynidir və yəqin ki, bu fakt onun diqqətini çəkib.

Üçüncü şəhid Əli Rəşid oğlu Hüseynov 1972-ci il yanvarın 10-da ulu Nizami yurdunda anadan olub. 1994-cü ildə Kəpəz



Rayon Hərbi Komissarlığı tərəfindən cəbhəyə yollanaraq 708 saylı hərbi hissənin tərkibində avtomobil bölmə komandiri kimi Milli Orduda xidmət etməyə başlayıb. Onun Laçın, Beyləqan, Şuşa və Füzuli bölgələrində xüsusi xidmətləri olub. Əli Hüseynov döyüş tapşırığını yerinə yetirərkən 2 dəfə ağır yaralanıb, həkimlərin səyi ilə sağaldıqdan sonra yenidən döyüş bölgəsinə yollanıb. Döyüş yolu Quru Qoşunlarının tərkibində Laçın, Beyləqan, Füzuli, Şuşa və Ağdamdan keçib. İgid Əli Rəşid oğlu 2 fevral 1995-ci ildə Ağdamın Qaradağlı kəndində gedən qızğın döyüş zamanı yaralanıb. Bakıya hərbi hospitala göndərilsə də, təəssüf ki, bir neçə gündən sonra gözlərini əbədi yumub.

Əslən Samux rayonunun Lək kəndindən olan digər igid Vətən oğlu – Xüsusi Təyinatlı Qüvvələrin giziri Əli Hüseynov 44 günlük "Zəfər Yürüşü"ndə adaşlarının və bütün şəhidlərimizin qisasını almağa gedib və buna nail ola bilib. Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb, həmçinin "Şücaətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" və Cəbrayılın, Füzulinin, Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

Şəhadətə qovuşmuş adaşlarından söz düşəndə Əli deyir ki, biz atalarımızın, böyük qardaşlarımızın açdığı qəhrəmanlıq cığırı ilə gedənlər olduğumuz üçün onların ruhuna əbədi borcluyuq. Birinci Qarabağ müharibəsində Azərbaycan Ordusu hələ yenicə təşəkkül tapıb formalaşırdı. Üstəlik, namərd qonşularımız Şimaldan və Qərbdən güclü dəstək alır, məlum dairələrin kölgəsində gizlənirdilər.

Bu dəfə isə vəziyyət tam başqa oldu. Dövlətimizin qüdrəti, Müzəffər Ali Baş Komandanımızın çox düzgün xarici siyasəti, sərkərdəlik strategiyası və taktikası sayəsində xeyli güclənmiş və döyüş məharətinə yiyələnmiş Silahlı Qüvvələrimiz üzbəüz savaşda düşməni 44 günə məhv etdi. Bu gün artıq Vətən torpaqları uğrunda canından keçmiş bütün şəhidlərimizin ruhu şaddır.

***Ə.DOSTƏLİ***
***XQ***